

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 199 (21.351)

14 oktyabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Maliyyə, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin yaradılmasının 95-ci ildönümü qeyd olunub



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin yaradılmasının 95-ci ildönümü münasibətilə tədbir keçirilib. Nazirliyin kollektivi əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanındakı abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.*

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin akt zalında davam etdirilən tədbiri maliyyə naziri Xalid İsgəndərov açaraq bildirib ki, Naxçıvan İnqilab Komitəsinin 10 oktyabr 1920-ci il tarixli qərarı ilə yaradılan Maliyyə Şöbəsi 1924-cü ilə qədər həmin ad altında fəaliyyət göstərib, Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsinin 18 yanvar 1924-cü il tarixli qərarı ilə Xalq Maliyyə Komissarlığına çevrilib. Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 30 mart 1946-cı il tarixli Fərmanı ilə Naxçıvan MSSR Maliyyə Komissarlığı Naxçıvan MSSR Maliyyə Nazirliyi adlandırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 21 yanvar 1998-ci il tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Maliyyə Nazirliyinin bazasında Naxçıvan Muxtar Respublikası Maliyyə-İqtisadiyyat Nazirliyi yaradılıb. Bu nazirlik Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1 may 2001-ci il tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinə çevrilib.

Qeyd olunub ki, son illərdə bu qurum da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub, 2007-ci ilin avqust ayında Naxçıvan şəhərində müasir standartlara uyğun zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət yeni bina inşa edilərək nazirliyin mərkəzi aparatının istifadəsinə verilib, əməkdaşların normal fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Eyni zamanda nazirliyin Kəngərli, Culfa, Şahbuz, Sədərək və Babək rayon şöbələri üçün yeni inzibati binalar tikilib. Ordubad Rayon Maliyyə Şöbəsi isə daha yaxşı iş şəraiti olan inzibati binaya köçürülüb.

Vurğulanıb ki, muxtar respublikada müasir texnologiyaların tətbiqi ilə bağlı nailiyyətlərdən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi də bəhrələnib. Hazırda Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Mərkəzi Xəzinədarlığından Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə daxil olan xəzinələrarası köçürmə sərəncamları elektron şəkildə daxil olmaqdadır. Sənəd dövriyyəsini sürətləndirmək, vaxt itkisini minimum həddə endirmək, sənədlərin təhlükəsizliyini təmin etmək və arxivini yaratmaq məqsədilə 2013-cü ildə daxili elektron poçt sistemi yaradılıb. Muxtar respublikanın idarə və təşkilatlarında maliyyə fəaliyyətinə nəzarətin operativliyini təmin etmək məqsədilə **hesabat.nakhchivan.az** domen ünvanlı operativ nəzarət portalı yaradılıb, portalda muxtar respublikanın bütün dövlət müəssisələrini əhatə edən elektron poçt sistemi istifadəyə verilib. Bundan əlavə, 4 oktyabr 2013-cü ildə muxtar respublikadakı dövlət müəssisələrində çalışan işçilərin əmək məzuniyyətlərinə operativ nəzarət etmək və məzuniyyətlə bağlı vahid informasiya bazasının yaradılması məqsədilə nazirlikdə əmək məzuniyyəti sistemi yaradılıb. Həmin il dekabrın 20-də tariflər haqqında məlumat sistemi də istifadəyə verilib ki, bu da, öz növbəsində, ştat cədvəlləri və tariflərin düzgün işlənməsinə və kənarlaşmalara yol verilməməsinə, dövlət müəssisələrində çalışan işçilərin tarif dərəcələri və vəzifə maaşlarına nazirliyin müvafiq şöbələri tərəfindən operativ nəzarətin həyata keçirilməsini təmin edir.

Xalid İsgəndərov kollektivin bundan sonra da yaradılmış şəraitdən düzgün istifadə edəcəyini və onlara göstərilən qayğıya əməli işlə cavab verəcəyini bildirib.

Nazirliyin bir qrup əməkdaşı mükafatlandırılıb.

Tədbirdən sonra Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin kollektivi Heydər Əliyev Sarayında təşkil olunmuş "Muxtar respublika qadınları müstəqillik illərində" adlı sərgiyə baxıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin yaranmasının 95 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.***



Nazirliyin inzibati binasında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev çıxış edərək bildirib ki, 95 illik yubileyini qeyd etdiyimiz Naxçıvan təhsili uzun tarixi bir inkişaf yolu keçib. Naxçıvanda maarif və təhsil hələ qədim dövrlərdən inkişaf edib. XIX əsrin sonlarında Naxçıvanda üsuli-cədid məktəbləri yaradılıb. XX əsrin əvvəllərində maarif şəbəkəsi genişlənib, diyarın şəhər və kəndlərində müxtəlifsəviyyəli dünyəvi məktəblər açılıb. 1920-ci ilədək Naxçıvanda, təqribən, 2000 şagirdin təlim-tərbiyəsi ilə məşğul olan 45 məktəb fəaliyyət göstərirdi. Naxçıvan İnqilab Komitəsinin 10 oktyabr 1920-ci il tarixli qərarına əsasən, Naxçıvanda həmin məktəbləri özündə birləşdirən ilk Təhsil Şöbəsi yaradılıb.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə milli təhsilin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilib. 1969-82-ci illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bütün sahələrlə yanaşı, təhsilin inkişafı xalqımızın böyük oğlunun diqqətində idi.

Piri Nağıyev bildirib ki, təhsilin inkişafını ölkəmizin, xalqımızın gələcəyi hesab edən ümummilli lider Heydər Əliyevin bu sahədə müəyyənləşdirdiyi strategiya muxtar respublikamızda uğurla davam etdirilməkdədir. Muxtar respublikamızda təhsilin maddi-texniki bazasının gücləndirilməsi, müasir məktəb binalarının inşa edilməsi, mövcud təhsil ocaqlarının yenidən qurulması, yaxud əsaslı təmir olunması regionda təhsilin inkişafına müsbət təsirini göstərməkdədir.

Muxtar respublikamızda təhsilə göstərilən yüksək dövlət qayğısının nəticəsində həm kəmiyyət, həm də keyfiyyət baxımından nailiyyətlər əldə olunub. 1995-2015-ci illər ərzində ümumtəhsil məktəblərinin ali təhsil müəssisələrinə tələbə qəbulunun nəticələri bunun əyani sübutudur. Belə ki, 1995-1996-cı tədris ilində ümumtəhsil məktəblərini bitirmiş 3512 məzundan 1301 nəfəri ali təhsil müəssisələrinə qəbul üçün sənəd verib və onlardan 401 nəfəri respublikamızın müxtəlif ali təhsil ocaqlarına daxil olub. 2014-2015-ci tədris ilində isə ümumtəhsil məktəblərini 3331 məzun bitirib, onlardan 2638 nəfəri, məktəbi bitirənlərin 79,2 faizi ali məktəblərə sənəd verib. Qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 1582 nəfəri ali məktəblərə qəbul olunub ki, bu da sənəd verənlərin 60 faizini təşkil edir. Ali məktəblərə qəbul olunanlardan 313 nəfəri 500-700 intervalında bal toplayıb. Müqayisə üçün qeyd edək ki, bu göstərici 1995-1996-cı tədris ilində 5 nəfər olub.

Son 20 ildə ümumtəhsil məktəblərini 89305 məzun bitirib, onlardan 52165 nəfəri ali təhsil müəssisələrinə qəbul üçün sənəd verib, 21162 nəfəri tələbə adını qazanıb. Bunlardan 2945 nəfəri 500-700 intervalında bal toplayıb.

Tədbirdə Şərur Rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva, Babək rayon Qoşadizə kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Şəmsiyyə Əsgərova çıxış edərək muxtar respublikada təhsilə göstərilən diqqət və qayğıdan danışıblar. Çıxışlarda qeyd olunub ki, təhsil sistemimizin dünya təhsilinə inteqrasiyası və qazanılmış təcrübənin müasir dövrlə əlaqələndirilməsi yolu ilə muxtar respublikamızda geniş dünyagörüşə, aydın təfəkkürə, sağlam düşüncəyə malik vətənpərvər gənclərin yetişdirilməsi biz təhsil işçilərinə etibar edilib. Bu etibarı doğrultmaq, muxtar respublika rəhbərinin təhsil işçilərinin qarşısına qoyduğu bütün vəzifələri layiqincə yerinə yetirmək üçün daha da mütəşəkkil işləməyə, bilik və bacarığımızı daim artırmağa və səmərəli tətbiq etməyə borcluyuq.

Sonda muxtar respublikamızın bir qrup qabaqcıl təhsil işçisinə Təhsil Nazirliyinin fəxri fərmanı verilib.

* * *

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin də yaradılmasının 95 illik yubileyi qeyd olunub.***

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsi önünə tər gül dəstələri düzüblər, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən tədbirdə nazir Cavid Səfərov məruzə edərək bildirib ki, Naxçıvan İnqilab Komitəsinin 10 oktyabr 1920-ci il tarixli qərarına əsasən, sakinlərin sosial müdafiəsini təşkil etmək məqsədilə İnqilab Komitəsinin nəzdində Sosial Təminat Şöbəsi yaradılıb. Tarixin sonrakı inkişaf mərhələlərində Naxçıvanda idarəetmə quruluşunun dəyişməsinə müvafiq olaraq Naxçıvan SSR Xalq Komissarları Sovetinin 4 dekabr 1921-ci il tarixli qərarı ilə yaranmış Əmək və Əhalinin Sosial Təminatı Xalq Komitəsi Naxçıvan SSR Xalq Komissarları Sovetinin 11 fevral 1922-ci il tarixli qərarı ilə Əmək və Əhalinin Sosial Təminatı Xalq Komissarlığına, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 30 mart 1946-cı il tarixli Fərmanı ilə Əmək və Əhalinin Sosial Təminatı Xalq Komissarlığı Naxçıvan MSSR Sosial Təminat Nazirliyinə çevrilib. 3 aprel 1993-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan xalqımızın ümummilli lideri Heydər Əliyevin fərmanı ilə Naxçıvan Muxtar Respublikası Sosial Təminat Nazirliyi ilə Dövlət Əmək və Sosial Məsələlər Komitəsi ləğv edilib, onların bazasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yaradılıb.



Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 28 iyun 2011-ci il tarixli Fərmanı ilə nazirliyin strukturu təkmilləşdirilib, yeni xidmətlər yaradılıb. Bu diqqət və qayğının davamı olaraq nazirliyin inzibati binasında əsaslı yenidənqurma işləri aparılıb.

Nazir deyib ki, son on səkkiz il ərzində şəhər və rayon məşğulluq mərkəzləri tərəfindən 31759 nəfər işaxtaran vətəndaş iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən əmək yarmarkalarının təşkili nəticəsində 9948 nəfər peşə və ixtisaslarına uyğun işlə təmin olunublar. Hazırda muxtar respublikada nazirlik tərəfindən sosial müdafiəyə ehtiyacı olan 16 min 176 şəxsə müxtəlif növ sosial xidmətlər göstərilir. Aztəminatlı ailələrin maddi rifah halının yaxşılaşdırılması məqsədilə 2006-cı ildən ötən dövr ərzində aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 28 milyon 272 min 334 manat ünvanlı dövlət sosial yardımı ödənilib.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda, Çernobıl Atom Elektrik Stansiyasındakı qəzanın ləğvində iştirak edən və 1941-1945-ci illər müharibəsində əlil olmuş 448 nəfərə avtomobil verilib, 191 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evləri ilə təmin olunub.

Bildirilib ki, məhdud fiziki imkanlı 4695 nəfər müxtəlif texniki bərpa vasitələri ilə təmin olunub, 2808 nəfərə protez-ortopedik xidmət göstərilib, bu kateqoriyadan olan 2205 nəfər respublikamızın müxtəlif sanatoriya və pansionatlarında müalicəsi məqsədilə göndərişlərlə təmin ediliblər.

Ahıl vətəndaşlara göstərilən sosial xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlibdir. Hazırda tək yaşayan və hərəkət qabiliyyəti məhdudlaşmış 478 ahıl vətəndaşa əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən evlərində, 14 ahıla isə Ahıllar evində sosial xidmət göstərilir.

Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası, onların cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzindədir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində defektoloji bölmə, kinekt və əmək terapiyası otaqları, Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı yaradılıb. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə və eşitmə məhdudiyyəti olan uşaqlar üçün brayl və daktilo əlifbasının tədrisi üzrə kurslar təşkil olunub. Onlara audio və elektron kitabxana xidməti göstərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası bu kateqoriyadan olan uşaqların müasir dövrün tələbləri səviyyəsində təhsil almalarına, onların cəmiyyətə daha fəal inteqrasiyasına təkan verib.

Sonra məruzə ətrafında çıxışlar olub, nazirliyin bir qrup əməkdaşına mükafat və fəxri fərman təqdim edilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda dövlət torpaq idarəçiliyinin yaradılmasından 95 il ötür



*Naxçıvanda dövlət torpaq idarəçiliyinin yaradılmasının 95 illiyi qeyd olunub.*

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində olublar.

Bu münasibətlə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində keçirilən tədbirdə çıxış edən komitə sədri Müslüm Cabbarzadə bildirmişdir ki, 95 il əvvəl, Naxçıvan İnqilab Komitəsinin 1920-ci il 10 oktyabr tarixli qərarı ilə İnqilab Komitəsinin nəzdində ilk Torpaq Şöbəsi yaradılmışdır. 1924-cü il yanvarın 18-də Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Torpaq Komissarlığı fəaliyyətə başlamışdır. 1946-cı il mayın 28-də isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Xalq Torpaq Komissarlığı Naxçıvan MSSR Kənd Təsərrüfatı Nazirliyi adlandırılmış və Kənd Təsərrüfatı Nazirliyinin Torpaq Şöbəsi yaradılmışdır.

Müslüm Cabbarzadə qeyd etmişdir ki, 1991-ci ildə ölkəmizin müstəqillik əldə etməsindən sonra qarşıda duran həllivacib məsələlərdən biri də yeni torpaq siyasətinin həyata keçirilməsi, torpaq islahatlarının aparılması idi. Kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edən torpaq islahatının əsası 1992-ci ildə, ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə Culfa rayonunun Şurud və Gal kəndlərində torpaq islahatı keçirilmişdir.

Diqqətə çatdırılmışdır ki, aqrar islahatların aparılmasını həyata keçirmək, eləcə də dövlət torpaq idarəçiliyini yenidən qurmaq və gücləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 20 sentyabr 1992-ci il tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsi yaradılmışdır. Komitə yaradıldıqdan dərhal sonra onun muxtar respublikanın rayonlarında, sonra isə Naxçıvan şəhərində şöbələri təşkil edilmişdir. Aqrar islahatlar muxtar respublikamızda uğurla həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsi Aqrar İslahat Komissiyası ilə birgə muxtar respublika ərazisində genişmiqyaslı aqrar islahatların həyata keçirilməsində mühüm rol oynamışdır. Belə ki, muxtar respublika üzrə 205 kənddə olan 132 təsərrüfatda torpaq islahatı aparılmış, 241 min 46 nəfərə torpaq sahəsi verilmişdir. Ümumilikdə, muxtar respublikada 70 min 598 ailə aqrar islahatlardan bəhrələnərək torpaq mülkiyyətçisinə çevrilmişdir ki, bu da muxtar respublika əhalisinin ərzaq və digər zəruri kənd təsərrüfatı məhsulları ilə təminatının yüksəlməsinə gətirib çıxarmışdır.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 25 may 2001-ci il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsi Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi adlandırılmışdır. 2002-ci il fevralın 5-dən isə Azərbaycan Dövlət Yerquruluşu Layihə İnstitutunun Naxçıvan filialı müstəqil Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutuna çevrilərək Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin tabeliyinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 31 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ləğv edilərək onun əsas funksiyaları Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə verilmişdir.

Qeyd olunmuşdur ki, mülkiyyət hüquqlarının tənzimlənməsində vahid idarəçiliyi təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 may 2015-ci il tarixli Sərəncamı ilə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin bazasında Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yaradılmış, 27 may 2015-ci tarixli Fərmanla komitənin Əsasnaməsi təsdiq edilmişdir.

“Muxtar respublikamızda vətəndaşların əmlak və torpaq hüquqlarının tənzimlənməsinə də hərtərəfli dövlət qayğısı göstərilir. Yeni yaradılmış Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi əməkdaşlarının iş şəraitinin yaxşılaşdırılması istiqamətində hazırda görülən işlər isə bu qayğının daha bir nümunəsini əks etdirir”, – deyən Müslüm Cabbarzadə bildirmişdir ki, hazırda komitənin inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılır.

Vurğulanmışdır ki, muxtar respublikada dövlət torpaq idarəçiliyinin inkişafı istiqamətində həyata keçirilən işlər təkcə bu günümüzə deyil, eləcə də gələcəyimizə hesablanmış iqtisadi və sosial siyasətin bir hissəsidir.

Sonra Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi aparatının Daşınmaz əmlak məsələləri şöbəsinin müdiri Nəcəfalı Nəcəfalıyevin, komitənin Sədərək Rayon İdarəsinin müdiri Hüsaməddin Həsənovun, komitə aparatının İnformasiya texnologiyaları və məlumat bazası şöbəsinin aparıcı məsləhətçisi Mətləb Hüseynlinin çıxışları olmuşdur.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin bir qrup əməkdaşına fəxri fərmanlar və mükafatlar təqdim edilmişdir.

Sonda Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin tarixi və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilmişdir.

***“Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2015-ci il tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

## Gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib



Oktyabrın 12-də keçirilən mərasimi Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov açıq elan edib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra xidmətin rəisi bildirib ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu sahədə görülən işlərin nəticəsidir ki, hazırda ölkəmizin təhlükəsizliyini etibarlı təmin edən müasir və güclü ordusu vardır. Ordumuz istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Son illərdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikasında yerləşən hissələrinin də inkişafına hərtərəfli şərait yaradıb, maddi-texniki təminat gücləndirilib, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Bütün bunlar çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verib.

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, baş ədliyyə müşaviri Elnur İsmayılov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Zaman Qasımov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Ramin Kazımov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını can-başla yerinə yetirəcəklərinə söz verib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclər hərbi xidmətə yola salınıb.

**Xəbərlər şöbəsi**

*14 oktyabr Beynəlxalq Standartlaşdırma Günüdür*

## İstehsal məhsullarının keyfiyyətinə nəzarət günün tələbidir

***Beynəlxalq Standartlaşdırma Təşkilatının yarandığı gün – oktyabrın 14-ü hər il Azərbaycanda da “Beynəlxalq Standartlaşdırma Günü” kimi qeyd edilir.***

Standartlaşdırma məhsul üçün norma, qayda və xarakteristikaları müəyyənləşdirən fəaliyyətdir. Beynəlxalq Standartlaşdırma Təşkilatının əsas məqsədi dünyada yaşayan insanların və ətraf mühitin təhlükəsizliyini qorumaqla yanaşı, beynəlxalq ticarətin inkişafı üçün dünya ölkələrini bir-birinə yaxınlaşdırmaq və onların iqtisadi gücünü artırmaqdan ibarətdir. Bu da bütün norma və qaydalara uyğun olan keyfiyyətli məhsul istehsal etmək və onun rəqabət qabiliyyətini yüksəltmək üçün standartlardan istifadənin mühüm şərt olduğunu göstərir. Müasir dövrdə standartlaşdırma çoxşaxəli inkişafın tənzimlənməsi üçün istər ölkədaxili, istərsə də beynəlxalq aləmdə əsas meyar kimi qəbul olunur.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra standartlaşdırma, metrologiya və patent sahələrinin inkişafı təmin edilmiş, bu sahəyə diqqət və qayğı daha da artırılmış, hüquqi baza möhkəmləndirilmişdir. Ölkəmizdə “Standartlaşdırma haqqında”, “Ölçmələrin vahidtinin təmin edilməsi haqqında”, “Yeyinti məhsulları haqqında” qanunlar və digər hüquqi sənədlər qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar standartlaşdırma sahəsini də əhatə edir. Bu gün Azərbaycan Beynəlxalq Standartlaşdırma Təşkilatının, Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Avrasiya Standartlaşdırma Təşkilatının və Türkdilli Ölkələrin Bölgələrarası Standartlaşdırma Birliyinin üzvüdür. Həmçinin bir çox dövlətlərlə standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə ikitərəfli sazişlər imzalanmışdır. Bu gün Azərbaycan markası ilə xarici bazarlara çıxarılan məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl işlər görülür.

Ölkəmizin xarici ticarət əlaqələrinin dərinləşməsi istehsal olunan məhsulların ixrac qabiliyyətinin artırılması üçün beynəlxalq standartların qəbulu və tətbiqini vacib məsələyə çevirir. Buna görə də istehsal prosesinin və istehlakçıların tələblərinə əsaslanan iqtisadiyyatın inkişafına yardım etmək, dünya bazarına keyfiyyətli məhsul çıxarılması prosesini sürətləndirmək məqsədilə beynəlxalq standartların tətbiqi ilə bağlı mühüm proqramlar qəbul edilir. Eyni zamanda ölkəmizdə milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması, müasir tələblərə uyğun yeni milli standartların qəbulu və tətbiqi prosesi də diqqət mərkəzində saxlanılır. Əsas hədəf ölkədə standartlaşdırmanın inkişaf etdirilməsi, beynəlxalq tələblərə cavab verən yeni milli standartların yaradılması və standartlar fondunun təkmilləşdirilməsindən ibarətdir. Çünki standartlaşdırmanın təkmilləşdirilməsi ölkə iqtisadiyyatının, sahibkarlığın inkişafında, istehlakçı hüquqlarının etibarlı qorunmasında, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsində başlıca amildir.

Naxçıvan Muxtar Respublikasında da standartlaşdırmanın inkişafı diqqət mərkəzində saxlanılır, bu sahədə mühüm tədbirlər həyata keçirilir. Hazırda muxtar respublikada keyfiyyətə nəzarət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilir. Bu istiqamətlər üzrə fəaliyyətin dövlətimiz tərəfindən davamlı dəstəklənməsi isə səmərəliliyin artırılması üçün geniş imkanlar yaradır. Ötən dövrdə ölçmə vasitələrinin yoxlanılması üçün müasirtipli yeni avadanlıqlar alınaraq quraşdırılmışdır. Bu tədbirlərin davamı olaraq hazırda Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üçün yeni inzibati bina inşa olunur.

Muxtar respublika iqtisadiyyatının sürətli inkişafı, istehsal müəssisələrinin dünya standartlarına cavab verən maddi-texniki baza ilə təchiz olunması beynəlxalq tələblər səviyyəsində qəbul edilən yeni standartların tətbiqinə geniş imkanlar açmışdır. İstehlakçıların tələblərinə uyğun iqtisadiyyatın inkişafına nail olmaq, daxili, eləcə də xarici bazara keyfiyyətli məhsul çıxarılması prosesini sürətləndirmək vacib şərtdir. Buna görə də istehsal olunan yerli məhsulların yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli olması, görülən işlərin və göstərilən xidmətlərin müasir standartlara cavab verməsi qarşıda duran prioritet vəzifələrdəndir. Bu isə standartlaşdırma sahəsində fəaliyyətin müasir tələblər əsasında qurulması ilə mümkündür.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi keyfiyyətə nəzarət infrastrukturunun və bu sahədə texniki tənzimləmə sisteminin qabaqcıl tələblərə uyğunlaşdırılmasını, istehlakçılara təklif olunan məhsulların keyfiyyətinin müasir standartların tələblərinə cavab verməsini və əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunmasını fəaliyyətində əsas istiqamət kimi götürür. Cari ilin ötən 9 ayı ərzində 104 milli standart və 1 texniki şərt komitənin standartlaşdırma fondunda qeydiyyata alınmışdır. Hazırda standartlaşdırma fondunda Azərbaycan Respublikasında qüvvədə olan 891 milli standart, 17 min 218 dövlətlərarası standart, 24 beynəlxalq standart, 30 Avropa standartı, 1 Rusiya standartı, 28 texniki şərt, 39 təsnifat, 1143 rəhbəredici sənəd, 173 metodiki sənəd, 2 təlimat olmaqla, ümumilikdə, 19 min 549 texniki-normativ hüquqi akt toplanmışdır. İlin əvvəlindən komitə tərəfindən 538-i ərzaq, 1229-u qeyri-ərzaq məhsulu olmaqla, 1767 məhsula uyğunluq sertifikatı verilmişdir. Bu sertifikatların 384-ü milli, 302-si dövlətlərarası, 993-ü beynəlxalq standartlara, 78-i təhlükəsizlik göstəricilərinə, 10-u isə müəssisələr tərəfindən hazırlanmış texniki şərtlərə uyğun olaraq verilmişdir.

Qeyd olunan dövrdə standartların təsərrüfat subyektlərinə çatdırılması və maarifləndirmə tədbirləri məqsədilə hüquqi və fiziki şəxslərlə 197 müqavilə bağlanmış, 54 müəssisədə istehsal olunan 127 məhsulun etiket layihəsi texniki-normativ hüquqi aktlara uyğun olaraq 3 dildə hazırlanmışdır. 167 müəssisənin 711 halda məhsulunun etiketləri ekspertizadan keçirilmiş, aşkar olunmuş nöqsanlarla əlaqədar 56 təsərrüfat subyektinə məktub göndərilmişdir. Muxtar respublikada fəaliyyət göstərən müəssisələrin İSO 9001 “Keyfiyyəti İdarəetmə Sistemləri” və İSO 22000 “Qida Məhsulları Təhlükəsizliyini İdarəetmə Sistemləri” standartlarının tətbiqinə və sertifikatlaşdırılmasına təşviq edilməsi barədə, eləcə də Naxçıvan Biznes Mərkəzində sahibkarlar üçün “Qida təhlükəsizliyi günün aktual məsələlərindəndir” mövzusunda, ictimai iaşə xidməti ilə bağlı texniki-normativ hüquqi aktların tələbləri və məişət xidməti obyektləri üçün peşə standartlarının tətbiqi barədə maarifləndirici seminarlar keçirilmişdir.

***Bu gün dünyada keyfiyyət standartlarının tətbiqi əsas meyar sayılır. Müəssisələrin gəlirlərindən, fəaliyyət sahəsindən, işinin həcmindən və bazardakı mövqeyindən asılı olmayaraq, fəaliyyətlərinin ən səmərəli yolu beynəlxalq standartların tələblərinə uyğun idarəetmə sisteminin qurulmasıdır. Bir sözlə, standartlaşdırma müasir iqtisadiyyatın əsas komponentidir. Bu səbəbdən də muxtar respublikamızda əhalinin sağlamlığının və istehlakçıların hüquqlarının qorunması, ətraf mühitin mühafizəsi məqsədilə standartlaşdırma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər bundan sonra da uğurla davam etdiriləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



*Naxçıvan Muxtar Respublikası ərazisində qədim və orta əsrlər dövründə yaradılmış çoxlu maddi-mədəniyyət nümunələri, o cümlədən memarlıq abidələri vardır. Bu abidələrin bir hissəsi yarandığı vaxtdan keçən müddət ərzində baş verən təbii fəlakətlər, müharibələr zamanı dağılmış, bir qismi isə zəmanəmizədək aşınmış, yarıuçuq vəziyyətdə gəlib çatmışdır.*

## *Gülüstan türbəsi* Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindəndir

Son iyirmi ildə bu abidələrdən, təxminən, altmışı bərpa olunmuş, bəzilərində isə hazırda abadlıq-bərpa işləri aparılmaqdadır. Belə abidələrdən biri də Azərbaycan memarlığının möhtəşəm nümunələrindən olan, Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda, Culfa şəhərinin yaxınlığında qırmızı tuf daşından inşa edilən Gülüstan türbəsidir. Orta əsr mənbələrində bəzən "Kəsik günbəz" kimi xatırlanan, memarlıq-konstruktiv quruluşuna görə Naxçıvanın, bütövlükdə Azərbaycanın türbətipli digər memarlıq abidələrindən fərqlənən Gülüstan türbəsi orta əsr Azərbaycan memarlıq abidələri içərisində özünəməxsus yer tutur.

Naxçıvan memarlıq məktəbinin ən gözəl nümunələrindən sayılan, Azərbaycanın qülləvarı türbələri sırasına daxil olan abidə iki hissədən – sərdabə və türbədən ibarətdir. Ancaq digər türbələrdə sərdabə hissə yerin altında yerləşdirildiyi halda burada sərdabə yerin səthindən yuxarıda inşa olunmuşdur. Türbənin aşağı hissəsini təşkil edən yonulmuş daşdan tikilmiş kürsülük xaricdən kəsik piramida, daxildən silindrik quruluşa malikdir. Yuxarı hissə isə on iki üzlü qüllədən ibarətdir.

Qüllənin bütün üzlərində yaradılan taxçaların içərisi çox incə şəkildə işlənmiş naxış və ornamentlərlə doldurulmuşdur. Türbənin daş üzərində oyulmuş ornamentləri zənginliyi, incəliyi, zərifliyi və mürəkkəbliyi ilə seçilir və demək olar ki, bu cəhətdən digər abidələri geridə qoyur. Abidəni inşa edən memar ornamentlər üzərində işləyərkən onları taxçalarda elə düzmüşdür ki, onu seyr edənlər həmişə qonşu səthlərdə müxtəlif biçimli ornamentlər görür. Yüksək sənətkarlıqla işlənmiş ornamentlərin taxçalarda təkrarı ancaq yaxından baxarkən hiss edilir. Bu naxış və ornamentləri ancaq Naxçıvan şəhərində 1186-cı ildə Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkir oğlu Naxçıvani tərəfindən inşa edilmiş Möminə xatın türbəsinin ornamentləri ilə müqayisə etmək olar. Yarandığı vaxtdan keçən müddət ərzində təbii qüvvələrin təsirindən Möminə xatın türbəsində olduğu kimi, bu türbənin də üst örtüyü dağılaraq sıradan çıxmışdır. Ona görə də Gülüstan türbəsinin çadır örtüyünün piramidaya oxşar və ya konik şəkildə olması ətrafında müxtəlif fikirlər yaranmışdır.

Bu cəhətdən oxşar abidələrlə müqayisəsinə əsasən, türbənin konik günbəzlə tamamlanması fikrinə daha çox üstünlük verilir. Şübhəsiz ki, türbə inşa olunarkən üzərində onun təyinatı, sifarişçisi, inşa tarixi, memarı haqqında müfəssəl məlumat verən epiqrafik sənəd – kitabə olmuşdur. Ehtimal ki, abidənin üst örtüyü dağılarkən bu kitabə də məhv olmuşdur. Ona görə də türbənin inşa tarixi haqqında dəqiq fikir söyləmək çətindir. Ancaq digər abidələrlə oxşar cəhətlərinə əsasən müqayisə edərək türbəni XII yüzilliyə aid etmək olar. Azərbaycanın memarlıq abidələri sırasında mühüm yerlərdən birini tutan, elmi cəhətdən çox əhəmiyyətli olan bu abidə zaman keçdikcə təbii qüvvələrin (qar, yağış, külək, isti, soyuq) təsirindən aşınmaya məruz qalmışdır. Sovet hakimiyyəti illərində türbə Araz çayı boyunca çəkilən sərhəd xəttinin arxasında qaldığı üçün baxımsız qalmış, bərpa edilməmiş, əhalinin onun yanına getməsinə icazə verilməmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 7 oktyabr 2015-ci ildə "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" Sərəncam imzalamışdır.

Naxçıvan Muxtar Respublikasında tarix-mədəniyyət abidələrinə dövlət qayğısının yeni bir təzahürü olan, on ikinci əsr Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindən biri, Əcəmi Naxçıvani memarlıq məktəbinin yadigarı kimi dəyərləndirilən, orta əsr Azərbaycan mədəniyyətini müasir dövrümüzədək yaşadan bu möhtəşəm abidədə bərpa işlərinin elmi və tarixi əsaslarla aparılmasını təmin etmək məqsədilə imzalanan sərəncamla Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə Gülüstan türbəsində bərpa işlərinin elmi əsaslarla aparılmasının təmin olunması tapşırılmışdır. Həmçinin sərəncamla AMEA Naxçıvan Bölməsinə "Gülüstan türbəsi" tədqiqat qrupunun yaradılması, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinə və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına bərpadan sonra Gülüstan türbəsinin ziyarətçilərə açıq olması üçün zəruri tədbirlər görülməsi tapşırılmışdır. Gülüstan türbəsinin bərpası və tədqiqi ilə əlaqədar xüsusi sərəncam imzalanması muxtar dövlətin başçısının bu abidəyə böyük əhəmiyyət verməsinin parlaq göstəricisidir. Sərəncamın kütləvi informasiya vasitələri ilə elan olunmasından dərhal sonra, 8 oktyabr 2015-ci ildə AMEA Naxçıvan Bölməsində aid tədqiqatçıları özündə birləşdirən "Gülüstan türbəsi" tədqiqat qrupu yaradılmışdır. Oktyabrın 12-də tədqiqat qrupunun ilk yığıncağı keçirilmiş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

**Ali Məclis Sədrinin imzaladığı bu sərəncam Gülüstan türbəsinin və onun ətrafındakı maddi-mədəniyyət abidələrinin tədqiqi üçün geniş imkanlar yaradır. Eyni zamanda bu sərəncam tədqiqatçıların qarşısında şərəfli və məsuliyyətli bir vəzifə qoyur. Biz tədqiqatçılar Ali Məclis Sədrinin sərəncamından irəli gələn vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi üçün səylə çalışacağıq.**

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA-nın müxbir üzvü, "Gülüstan türbəsi" tədqiqat qrupunun rəhbəri***

*Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan qadınlar xoşbəxtdirlər. Niyə də olmasınlar? İstər ev, istərsə də iş qadını olan xanımlarımız hərtərəfli qayğı ilə əhatə ediliblər. Bu günlərdə Heydər Əliyev Sarayında təşkil olunan istedadlı qadınların əl işlərinin sərgisi onlara göstərilən diqqət və qayğının parlaq təzahürü idi.*

## "Muxtar respublika qadınları müstəqillik illərində" sərgisinin milli dəyərlərimizə həsr olunması onun əhəmiyyətini daha da artırıb

"Muxtar respublika qadınları müstəqillik illərində" mövzusuna həsr olunmuş sərgidə muxtar respublikada yaşayan 126 istedadlı qadının müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri və əl işlərindən ibarət 753 yaradıcılıq nümunəsi nümayiş etdirilir. Sərginin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etməsi, tapşırıq və tövsiyələrini verməsi qadınların gələcək yaradıcılıq fəaliyyətləri üçün böyük stimul oldu. Tədbirdə Ali Məclisin Sədri dedi: ***"Milli dəyərlər min illər ərzində yaradılır və nəsildən-nəslə ötürülərək yaşadılır. Milli dəyərlərin əsas yaradıcıları və yaşadanlar isə qadınlardır. Ölkədə sabitlik varsa, ailə dəyərləri qorunursa, qadınlar cəmiyyətin müxtəlif sahələrində təmsil olunurlarsa, o zaman milli dəyərlər də yaşayacaqdır. Ötən əsrin 90-cı illərində ölkəmizdə baş verən hadisələr digər sahələrlə yanaşı, milli dəyərlərin də qorunub-yaşadılmasına imkan vermirdi. Bu sahə ilə məşğul olan qadınlara lazımi qayğı göstərilmirdi. Lakin bu gün ölkəmizin hərtərəfli inkişafı, mövcud sabitlik, dövlət-qadın siyasətinin uğurla həyata keçirilməsi, ailə dəyərlərinə yüksək qiymət verilməsi qadınların ölkəmizin ictimai həyatında fəal iştirakına və istedadlarının üzə çıxarılmasına imkan verir. Bu gün qadınların bütün sahələrdə fəaliyyəti təmin olunur, min illər ərzində formalaşdırılan milli dəyərlərimiz yaşadılır".***

Bu sərginin təşkil olunmasının muxtar respublikamız üçün əhəmiyyəti olduqca böyükdür. Bir-birindən bacarıqlı, qabiliyyətli insanlar yetişdirən Naxçıvanda istedadlı qadınlarımız çoxdur. Onların istedadlarının ortaya çıxması üçün belə sərgilərin təşkili olduqca vacibdir. Qadınlarımız əl işlərində keçmişimizi yaşatmaqla, həm də bu günümüzün salnaməsini yaradırlar. Dünənimiz və bu günümüz incə qadın qəlbinin, qadın zəkasının, qadın zövqünün zərifliyi ilə müxtəlif sənət əsərlərində əbədiləşdirilir. Budəfəki sərginin həsr olunduğu mövzu da dəyəri baxımından böyük ictimai məna daşıyır.

Muxtar respublika qadınları müstəqillik illərində... Bu illər qadınlarımızın həyatında mühüm yer tutur. Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikada yaranan çətinliklər, bəlkə də, ən çox qadınlarımız hiss edirdi. İşıqsız, qazsız evdə övlad böyütmək problemi və digər qayğılar qadınlarımız üçün də çəkilməz idi. O illərdə bacarıqlı qadınlarımızın da istedadları itib-batırdı. Yaxşı ki, belə hal çox çəkmədi. Həyat öz axarına düşdü, qadınlarımız xoş günlərə qovuşdular.

Qeyd etmək lazımdır ki, əvvəlki illərdə də belə sərgilər təşkil olunub. Növbəti sərgi həmin tədbirlərin davamıdır. Burada nümayiş etdirilən əsərlərdə nail olduğumuz inkişaf öz əksini tapıb.

Sərgidəki əsərlərdə xanımların hər birinin fərqli bir istedada, fərqli bir əl qabiliyyətinə, incə zövq və fantaziyaya malik olduqlarını duymaq çətin deyil. Onların yaradıcılıq yolu müəyyən mənada bir-birinə bənzəsə də, hər biri ayrı-ayrılıqda başqa bir gözəllik, zəriflik nümunəsidir. Yaradıcılıq nümunələri sərgidə nümayiş etdirilən qadınlarımızdan biri də Aidə İbrahimovadır. Culfa Rayon Uşaq Yaradıcılıq Mərkəzində "Bacarıqlı əllər" dərnəyinə rəhbərlik edir. Aidə xanım toxuma və tikmədə, qadın bəzək əşyalarının hazırlanmasında, milli filmlərimizdə olan personajların gəlinciklərinin düzəldilməsində, ətraf mühitin mühafizəsi məqsədilə istifadəsiz nəsnələrin yenidən bərpasında çox bacarıqlıdır. Onun Culfa rayonunda iki dəfə fərdi sərgisi təşkil olunub və təşəbbüsü ilə Culfa Rayon Mədəniyyət Evində sağlamlıq imkanları məhdud olan uşaqlar üçün "Qızıl əllər" dərnəyi yaradılıb. O, yaradıcılıq nümunələrində abidələrimizin üzərində əks olunan gözəl



naxışları, xalçalarımızda tətbiq olunan müxtəlif ornamentləri işləməyi çox sevdiyini bildirdi. Aidə xanım hazırda üzərində muxtar respublikamızın tarixi abidələrinin əksi olacaq milli geyimlərin hazırlanması ilə məşğuldur.

Əl işlərində milli dəyərlərimizi yaşatmağa daha çox üstünlük verən xanımlarımızdan biri də Züriyyə Musayevadır. O, hər nə toxuyursa xalqımızın tarixi keçmişinin, milli adət-ənənələrimizin, qədim mərasimlərimizin təsvirinə daha çox üstünlük verir. Toxuduğu bir-birindən gözəl xalçalar, kilimlər muxtar respublikamızda keçirilən əksər bayram və şənliklərdə nümayiş etdirilir.

Digər həmsöhbətim Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin əl işləri dərnəyinin rəhbəri Röya Fərəcova ilk dəfədir ki, belə sərgidə iştirak edir. O, mirvarilərlə müxtəlif sənət nümunələri yaradır.

Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Səriyyə Hüseynovanın "Şirlər" və "At" əsərləri sərgidə nümayiş etdirilir.

Sərgi iştirakçıları doğma diyarımız olan Naxçıvanda qadınların əl işlərinin sərgisinin təşkil olunmasının onlarda böyük həvəs, çalışmaq əzmi yaratdığını deyirlər.

Sərgidə evdar qadınların da əsərləri özünə yer alıb. Mətanət Hüseynova ilə söhbətimiz maraqlı oldu. O deyir:

– Biz Bakı şəhərindənik. Həyat yoldaşım Naxçıvan şəhərində hərbi qulluq keçdiyindən uzun illərdir, burada yaşayırıq. Əvvəlcə onu deyim ki, belə bir şəhərdə yaşamaqdan və bu əmin-amanlıqda övladlarımı böyütməkdən qürur duyuram. Mən özüm evdar qadın olsam da, ictimai tədbirlərdə, təşkil olunan sərgilərdə tikmə və toxuma işlərimlə iştirak edirəm. 2012-ci ildə "Milli dəyərlər ili" ilə əlaqədar keçirilən sərgidə iştirak eləməyim məni həvəsləndirdi. Bu sərgiyə böyük həvəslə hazırlaşırdım. Özüm də tədbirdə iştirak etdim. Bütün qadınlar adından yaradılan bu şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm.

Sərgidə sağlamlıq imkanları məhdud olan qadınlarımızın əl işlərinə də yer verilib. Onlardan biri də Ordubad rayonundan olan Zülalə Kazımovadır. Zülalə xanımın müxtəlif tikmələri sərgidə böyük maraqla qarşılanır. Bu xanım da həmkarları kimi muxtar respublikamızda qadınlara göstərilən diqqət və qayğıdan çox razıdır. Onun fikrincə, Naxçıvan qadınlarının firavan həyatına, ictimai mühitlə geniş əlaqələrinin yaradılmasına doğru yönəldilmiş belə addımlar onların gələcək yaradıcılığı üçün böyük stimuldur.

Sərgidə tələbələrin əl işləri diqqət çəkir. Həmin gənclərdən biri olan Gülşad Quliyeva Ordubad rayonunun Gənzə kəndindəndir. Hazırda Naxçıvan Müəllimlər İnstitutunun Təsviri incəsənət müəllimliyi ixtisasının üçüncü kursunda təhsil alır. Uşaqlıqdan gözəl rəsm əsərləri çəkir. Əsərlərində Vətən sevgisi, məhəbbət mövzusu ön planda dayanır. Onun yaradıcılıq yolu başqalarından fərqlənir. Hazırladığı vitraj (şəbəkə) üslubunda olan əsərlərinin yanından laqeyd keçmək mümkün deyil. Bütün bunlar Gülşadın geniş fantaziyaya, incə estetik zövqə malik olduğunun göstəricisidir. Əsərlərində zəngin rəng çalarlarından böyük məharətlə istifadə edən Gülşadın sərgidə 2 əsəri nümayiş olunur və ilk dəfədir ki, belə geniş auditoriyada əsərləri ilə tamaşaçı qarşısına çıxır. Buna baxmayaraq, əsərləri sərgi iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb. Onun "Köklü ailə" əsəri ən çox bəyənilən əsərlər sırasındadır. Burada ailənin möhkəmliyi ön planda dayanır. Gənc rəssam gələcəkdə belə sərgilərə daha çox əsər çıxarmağı planlaşdırıb.

Qeyd edək ki, sərgi bu gün başa çatır. Muxtar respublikamızın müxtəlif idarə və təşkilatlarından buraya gələn qonaqlar sərgiyə böyük maraq göstərirlər. Sərgidə olarkən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşı Səbuhi Hüseynov belə tədbirlərin həyata keçirilməsini qadınların istedad və bacarıqlarını üzə çıxarmaqla yanaşı, Naxçıvanın qədim tarixini və müasir inkişafını ilmələrə, tablolara köçürməklə qorumaq və yaşatmaq baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Naxçıvan şəhər sakini Səkinə Qoçəliyeva ilə də həmsöhbət oldum. Dedi ki, mətbuatdan belə bir sərginin keçirilməsi xəbərini öyrənib. Dediyinə görə, əl işləri var. O da gələcəkdə belə sərgilərdə əl işləri ilə iştirak etmək istəyir.

*Gözəl arzudur.*

**Sara ƏZİMOVA**

Yaddaşlarda yaşayanlar

# Şeirimizin xan çinarı

## Bu gün Xalq şairi Məmməd Arazın doğum günüdür



*Salam, a zirvələr, salam, a dağlar*
*Yenə bir qayada göyərdin məni.*
*Salam, a zirvələr, salam, a dağlar*
*Yenə bir nəğməlik kövrəldin məni.*

O zirvələrin, dağların ətəyində Məmməd Araz nəfəsi göyərib. Mamır olub bitmək istədiyi, enib daşdan-daşa düşüb, lal dilini anlamağa çalışdığı qayaların qoynunda bir muzey var. Xalq şairi Məmməd Arazın ev-muzeyi. Gündoğandan günbatana məskən tutub, dünyaya sözün qüdrətilə yeni dünya – "Məmməd Araz dünyası" gətirən, ancaq hər zamankı sadəliyi ilə "bir qaya dibində yerim olardı" deyib pıçıldayan şairin muzeyi.

Onun şeirlərinin hər bəndində həqiqi bir vətəndaşın qəlb çırpıntıları, harayı, arzuları var. Hədər yerə söyləməyiblər ki, şəxsiyyəti ilə yaradıcılığı üst-üstə düşən şair deyəndə, ağıla ilk gələnlərdəndi Məmməd Araz. Həyatının bütün ağrı-acısı, ucqar bir dağ kəndində yaşayan o qarayanız uşağın xalqın sevimli şairi mərtəbəsinə yüksələnə qədər yaşadıqları, uğradığı haqsızlıqlar, umu-küsü necə də sıralanıb bölgülərə, vəznlərə. "Bir şairin əsl bioqrafiyası şeirləridi" deyirdin, şair. Kim daha yaxşı tanıdar səni şeirlərindən özgə?

*Xəyanət nə, badalaq nə tanımadım.*
*Qibtələr nə, həsədlər nə uzaq-uzaq*
*Paxıl nədi, paxıllar nə heç bilmədim.*
*Və bunların hamısına qoşul, –*
*deyən təriflərə yem olmadım.*

Bir şairin həyat və yaradıcılıq qayəsi bundan daha tutarlı necə köçürülərdi şeir yaddaşına? "Bu torpağın yumruq boyda daşı" olan şairin ürəyində, fikrində hansı hislər, hansı fikirlər əbədilik daşlaşdı? "Fikrimin çəkisi çəkimdən ağır, dartmaq da çətindi, atmaq da çətin" – o fikirlər səni nə yazmağa, nə də rahat yaşamağa qoydu, şair. "Ağır bir sənətə könül bağladın, bəxtinə dərdin də ağırı düşdü". O dərdin adı sənin bənd-bənd, misra-misra dilə gətirdiyin "vətən dərdi" idi. Bəlkə elə bunun üçün "bu torpağa səpilməyə dən kimi acdın, bu torpağın dan yerində dəfn olunmağa" bu qədər möhtac.

Xalq şairimiz haqqında yazılmış xatirələri, şairin publisistik yazılarını, əlyazmalarını vərəqləyirəm. Məmmədin Arazın əlyazmalarından biri diqqətimi çəkir: "Əgər bir ölkənin başçısı sözü uca tutursa, yaradıcı insanların əməyini dəyərləndirirsə, onda həyatın, yaşamağın mənası daha da artır". Söhbət ədəbiyyatımızın böyük hamisi və bilicisi ulu öndər Heydər Əliyevdən gedir. Fikrin davamında yazır: "Qollarımdan əlli min dost əli yapışıb. Onlardan ən güclüsü, ən xeyirlisi məhz ölkə başçısı cənab Heydər Əliyevin əlidir". Xalq şairinin həm şəxsiyyətinə, həm yaradıcılığına böyük diqqət göstərən ulu öndər 1995-ci ildə şairi ömür-gün yoldaşı ilə birgə dövlət hesabına Almaniyaya müalicəyə göndərmiş, onu Vətənin ali mükafatına – "İstiqlal" ordeninə layiq görmüşdü. Məmməd Arazın yaşayışını, həyatını daha da yaxşılaşdırmaq üçün onu müasir mənzil ilə təmin etmişdi. Xalq şairinin həyatına, yaradıcılığına olan diqqət hər gün bir az da artdı. Bu gün istər ölkə Prezidenti, istərsə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən şairin yaradıcılığına böyük ehtiram göstərilir. Paytaxt Bakıda, həmçinin çox sevdiyi Naxçıvanda adının əbədiləşdirildiyi ünvanlar var. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 iyun 2013-cü il tarixli Sərəncamına əsasən, Şahbuz rayonunun Nursu kəndində Məmməd Arazın ev-muzeyi yaradılmış və elə ötən il şairin anım günündə istifadəyə verilmişdir.

*"Mən uca dağlara babam demişəm,*
*Ərköyün balayam dağlar yanında",* – deyən Məmməd Araz bu dağların ətəyində ünvan tapdı. Qələm dostuna müraciətlə yazdığı "Şair, qayalara, dağlara söykən", əslində, özünə məsləhəti idi. "Körpülənin, ay Arazlar, məni qoymayın təklənəm" deyib söykəndiyi yer də bura oldu. Nursu öz şair oğlu ilə dünyanı gəzdi, dünya Nursunu Məmməd Arazın ürəyində, sənətinin sehrində gördü, tanıdı. Və indi şairin ev-muzeyinin yaradılması ilə uzaq ellərdən, şəhərlərdən bu balaca dağ kəndinə gələnlərin sayı artır, ürəyində sözdən, şeirdən od qalayanlar bu ünvana üz tuturlar. Bəzən düşünürəm ki, ən böyük ekspozisiya zalı elə təbiətdi, ən dəyərli eksponat elə şairin bənd-bənd, misra-misra şeirləridi.

"Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır", – deyiblər. Canlı şahidi olmayan yüz oxusa da, tanıyarmı Çadırdaş ətəyini, Nursu bulağını, üz yalayan səhər yelini, dərəni, uçurumu? O sal daşlara sığal çəkməyən necə anlar – "Ana yurdum, hər daşına üz qoyum", – deyən şairin sözünün sehrini, qələminin qüdrətini?

Bildiyimiz kimi, muxtar respublikamızda artıq ənənə halını almış "Muzey günləri" keçirilir. Muzeylərlə əlaqələrin daha mütərəqqi yollarla inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü il 19 dekabr tarixində "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncam imzalamışdır. Bu sərəncama uyğun olaraq, muxtar respublikada fəaliyyət göstərən muzeylərə mərkəzi icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının ziyarətləri təşkil olur. Təbii ki, Xalq şairi Məmməd Arazın ev-muzeyi də ziyarət edilir.

"Əgər gücüm çatsa, bu torpağı çiynimə alıb dünyanın sənət sərgilərinə çıxardardım, onda bu torpağın rəngi ilə dünyanı heyrətləndirərdim", – deyən Xalq şairi Məmməd Araz bu torpağı çiyninə alıb sözlə ucaltdı, sözlə ana yurdun xəritəsini çəkdi. Söz mülkünün Atabəyi olan xalqın şairi öz qələmi ilə özünə əbədilik yaşamaq haqqı tanıdı.

*Ürəyimi bu torpağa basdırdım, demək,*
*Nə zamansa bu yollarda söz göyərəcək.*

Yeni sözlər, yeni fikirlər göyərəcək, yeni şairlər, yeni oxucu nəsilləri yetişəcək. Ancaq hər zaman oxunacaq, xatırlanacaq Məmməd Araz. Elə bir qələm dostunun da dediyi kimi:

*Məmməd Araz Azərbaycan havasındadı,*
*Məmməd Araz Azərbaycan çörəyindədi.*

Və bütün bu yazılanları, şairin xatirələrini oxuyarkən, haqqında yazılmış çoxsaylı qəzet materiallarını, kitabları, xüsusən də "Naxçıvan albomu"nu vərəqlədikcə düşünürəm, yaşasaydı əgər Məmməd Araz daha hansı misraların qonağı olardı, şair yazılmayan hansı fikirləri meydana çıxarardı? Və bu an sanki axtardığım sualların cavabı olaraq şairin əlyazmalarının içərisindən bir misra baş qaldırır:

*Ondan ayrılmayır könlüm bir an da,*
*Qəlbimdir, canımdır bu torpaq mənim.*
*Özüm o yerlərdə olmayanda da,*
*Xəyalım orada olacaq mənim.*

**Fizzə BAĞIROVA**
***Məmməd Arazın ev-muzeyinin direktoru***

# Muğam konserti tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb

***Beynəlxalq muğam festivalının qalibi, istedadlı muğam ifaçısı Eytiram Hüseyinov ötən şənbə günü Naxçıvan şəhərində olub. O, Naxçıvan Dövlət Filarmoniyasında ustad dərsi keçib.***

Dərsdə muxtar respublikamızda fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin muğam siniflərində, Naxçıvan Dövlət Universitetində və Naxçıvan Musiqi Kollecində müvafiq ixtisas üzrə təhsil alan şagirdlər və tələbələr, Naxçıvan Dövlət Filarmoniyasının solistləri iştirak ediblər.

Qeyd olunub ki, milli-mənəvi dəyərlərimizin əvəzedilməz tərkib hissəsi olan muğamın inkişafına ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında böyük diqqət göstərilir. Muğam müsabiqələrinin keçirilməsi, muğamın təbliği istiqamətində görülən işlər davamlı xarakter aldığındandır ki, son illərdə gənclərin muğam sənətinə marağı xeyli artıb. Belə tədbirlərin keçirilməsində məqsəd istedadlı muğam ifaçılarını üzə çıxarmaqdır.

Sonra Eytiram Hüseyinov "Mahur" muğamını ifa edib, iştirakçıların suallarını cavablandırıb.

Axşam Heydər Əliyev Sarayında muğam ifaçısının konserti təşkil olunub. Azərbaycan Respublikasının Əməkdar artistləri Malik Mansurovun (tar), Elşən Mansurovun (kamança), Kamran Əkbərovun (nağara) müşayiət etdikləri konsertdə Eytiram Hüseyinov bir neçə



muğamı naxçıvanlı muğamsevərlərə təqdim edib.

Qeyd edək ki, muğam sənətinin inkişafındakı fəaliyyətinə görə Eytiram Hüseyinov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 12 oktyabr tarixli Sərəncamı ilə "Əməkdar artist" fəxri adına layiq görülüb.

# Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

***Naxçıvan şəhərinin Qaraçuq kəndində torpaq üzərində mülkiyyət hüququ ilə bağlı keçirilən hüquqi maarifləndirmə tədbirini Naxçıvan Şəhər Prokurorluğu təşkil etmişdi.***

Qaraçuq Kənd Mərkəzində keçirilən və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açmışdır.

Naxçıvan şəhər prokurorunun köməkçisi, II dərəcəli hüquqşünas Ramin Tağıyev çıxış edərək bildirmişdir ki, respublikamızda torpaq islahatlarının aparılmasının hüquqi əsasları və qaydaları 16 iyul 1996-cı il tarixdə qəbul olunan "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmişdir. Həmin qanunda göstərilir ki, torpaq islahatının məqsədi iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirməklə, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təminatına nail olmaq və nəticə etibarilə xalqımızın maddi rifahını yüksəltməkdən ibarətdir.

Tədbirdə çıxış edən Naxçıvan Şəhər Prokurorluğunun müstəntiqi, III dərəcəli hüquqşünas Turqay Həşimli vurğulamışdır ki, torpaq sahələrində bəzi tikintilərin aparılması qanunvericiliklə qadağan olunur. İnzibati Xətalar Məcəlləsinə əsasən, qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığı alınmadan binaların və qurğuların tikilməsinə görə fiziki şəxslər üç yüz manatdan altı yüz manatadək miqdarda, vəzifəli şəxslər min beş yüz manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər on beş min manatdan otuz min manatadək miqdarda cərimə edilirlər.

Sonda mövzu ilə bağlı tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Tədbirə Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi

## aşağıdakı polis orqanlarında vakant olan orta rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

**Dövlət ali təhsil müəssisələrinin hüquqşünaslıq ixtisasını bitirmiş namizədlər üçün**

***1) Təhqiqatçı vəzifəsinə:***

Culfa Rayon Polis Şöbəsi (1 yer), Şahbuz Rayon Polis Şöbəsi (1 yer).

***2) Polis sahə inspektoru vəzifəsinə:***

Naxçıvan Şəhər Polis İdarəsi (1 yer), Babək Rayon Polis Şöbəsi (1 yer), Culfa Rayon Polis Şöbəsi (1 yer), Ordubad Rayon Polis Şöbəsi (2 yer), Ordubad Rayon Polis Şöbəsinin Biləv Polis Bölməsi (1 yer), Şahbuz Rayon Polis Şöbəsi (1 yer), Şərur Rayon Polis Şöbəsi (1 yer), Şərur Rayon Polis Şöbəsinin İbadulla Polis Bölməsi (4 yer).

**Dövlət ali təhsil müəssisələrini bitirmiş pedaqoji təhsilli namizədlər üçün**

***3) Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifəsinə:***

Culfa Rayon Polis Şöbəsi (1 yer), Şərur Rayon Polis Şöbəsinin İbadulla Polis Bölməsi (1 yer).

**Müsabiqə test imtahanlarından və müsahibədən ibarətdir**

Test imtahanları Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təsdiq olunmuş proqramlara və daxili işlər orqanlarının fəaliyyətini tənzimləyən qanunvericiliyə, insan hüquq və azadlıqlarına dair beynəlxalq aktlara aid, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən suallar üzrə keçirilir.

Müsahibə test imtahanını müvəffəqiyyətlə keçmiş namizədlərlə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin müsabiqə komissiyası tərəfindən aparılır.

Müsabiqədə dövlət təhsil müəssisələrində ali hüquq və ya pedaqoji təhsil (pedaqoji təhsilli mütəxəssislər gələcəkdə polisin digər xidmət sahəsinə dəyişilməmək şərti ilə) almış, Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), yaşı 30-dan yuxarı olmayan və "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Daxili işlər orqanlarında xidmətə qəbul olmaq istəyən şəxslər bu elanda göstərilmiş ünvanda yerləşən Daxili İşlər Nazirliyinin müsabiqə komissiyasına müraciət edərək aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *Şəxsiyyət vəsiqəsi*
- *Ali təhsil haqqında diplom*
- *Hərbi bilet (kişilər üçün)*
- *Əmək kitabçası (olanlar üçün)*

Təqdim olunmuş sənədlər əsasında namizədin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır. Namizədlərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

Müsabiqədə iştirak etmək üçün sənədlər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binasında (Naxçıvan şəhəri, Nizami küçəsi, 32) 2015-ci ilin oktyabr ayının 17-dən noyabr ayının 17-dək hər gün (şənbə və bazar günlərindən başqa) saat $10^{00}$-dan $17^{00}$-dək qəbul olunur.

***Əlaqə telefonları – 545-08-10 (daxili 155, 156)***

## İtmişdir

Naxçıvan şəhəri, "6-cı" məhəllə, ev $1^{B}$-də yaşayan Əsgərov Fizuli Adil oğlunun adına olan 12113 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Mahir Səfiyar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi, ev 19-da yaşamış Səfərova Zərifə Rza qızının adına olan 66 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Nəcəfova Günel İsa qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 769